# Xocalı soyqırımı-xalqın qan yaddaşı

## Xocalı soyqırımı– XX əsrin faciəsi

**(Əvvəli 21 fevral 2013-cü il tarixli sayımızda).**

Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə— Xocalı soyqırımına, əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Ermənistanın işğalçı siyasətinə məruz qalan bir milyondan çox soydaşlarımız ağır şəraitdə yaşayır.

BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respubilkası ərazilərinin Ermənistan ordusu tərəfindən işğalı ilə bağlı 1993-ci ilin aprelində qəbul etdiyi 822 saylı, iyulda qəbul etdiyi 853 saylı, oktyabrda qəbul etdiyi 874 saylı və noyabrda qəbul etdiyi 884 saylı qətnamələrə bu günə kimi Ermənistan dövləti tam etinasızlıq göstərmiş və bununla da beynəlxalq birliyin sözünə məhəl qoymamışdır.

Qarabağ probleminin ədalətli həlli uğrunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl, prinsipial və qətiyyətli siyasi xətt, Azərbaycan Respublikasının konstruktiv mövqeyi dünya dövlətlərinə yaxşı bəllidir. Problemin sülh və danışıqlar yolu ilə həllinin əsas istiqamətləri hələ 1996-cı ilin dekabrında ATƏT-in Lissabon Sammitində dünyanın 53 dövləti tərəfindən bəyənilmiş və dəstəklənmişdir.






XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımının beynəlxalq ictimaiyyətə çatdırılması və qətliama adekvat qiymətin verilməsi istiqamətində çox böyük işlər görülür.

Hazırda dünyanın 60-dan çox ölkəsində bununla əlaqədar təbliğat işləri aparılır. Bir çox ölkələrin parlamentlərində də qətliam qurbanları anılır.

Son illərdə Xocalı soyqırımının ildönümünün qeyd olunması Avropa ölkələrində xüsusilə geniş yayılıb. Türkiyə, ABŞ, İngiltərə, Almaniya, Danimarka, İndoneziya, Yunanıstan, İsrail, Ərəbistan kimi ölkələrdə anımlar təkcə mitinq səviyyəsində yox, müzakirələr, universitetlərdə mühazirələr, diskussiyalar, televiziya proqramlarında verilişlər, müxtəlif sərgilərin təşkili müstəvisində keçirilir.

İslam Konfransı Təşkilatı Parlament Birliyi «Xocalıya Ədalət» beynəlxalq kompaniyasına dəstək çərçivəsində xüsusi qətnamə qəbul edib.

Qətnamədə «Xocalıya Ədalət» kampaniyasına tam dəstək ifadə olunaraq, quruma üzv olan 51 dövlətin parlamentində qırğının «insanlığa qarşı cinayət» kimi tanınması və kampaniyaya həm milli, həm də beynəlxalq səviyyələrdə dəstək verməyə çağıran bənd də öz əksini tapıb. Qətnamənin qəbul edildiyi toplantıda 10-dan artıq ölkənin parlament başçıları, 100-ə yaxın parlament üzvləri, eləcə də bir sıra nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Ermənistanın da üzv olduğu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Birliyinin nümayəndələri də iştirak edib.

Türkiyə Böyük Millət Məclisinin Xarici İşlər komissiyası Xocalı faciəsinin iyirmi illiyi ilə əlaqədar bəyanət qəbul etmişdir.

Biz hamımız bir planetin sakinləriyik və bizim ümumi evimizi ölüm və qanla hədələyən kəslərə qarşı qətiyyətli və birlikdə mübarizə aparmalıyıq. İnanırıq ki, XXI yüzilə qədəm qoymuş xalqların xoşbəxt yaşamaları naminə, ədalət naminə, yüksək insani dəyərlərin təntənəsi naminə bütün dünya dövlətləri, parlamentləri, beynəlxalq təşkilatlar ədalətin bərpasını dəstəkləyəcəklər. Dağlıq Qarabağ probleminin sülh və danışıqlar yolu ilə həllinin tərəfdarı olmaqla, hər birimiz inanırıq ki, dünya dövlətlərinin, onların parlamentlərinin, beynəlxalq təşkilatların birgə səyləri nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar və məcburi köçkünlər doğma yurd-yuvalarına qayıdacaqlar.

**Varis YAQUBOV,**
**RİH-nin sektor müdiri.**

## Ermənilər qocalara, qadınlara və uşaqlara aman vermədilər

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni quldurları sovet ordusunun Xankəndində yerləşən 366-cı motoatıcı alayı bölmələrinin yardımı və iştirakı ilə Azərbaycanın Xocalı şəhərini yerləyeksan etdilər.

Xocalı Ağdam—Şuşa yolu üzərində Əsgəranla Xankəndi arasında mühüm yaşayış məntəqələrindən biri idi. Dağlıq Qarabağda yeganə təyyarə limanı burada yerləşirdi.

Şəhər tipli bu qəsəbədə azərbaycanlılar yaşayırdılar. Bu yaşayış məntəqəsi həm də xalqımızın ən qədim məskənlərindən və mədəniyyət mərkəzlərindən biri sayılırdı. Şəhər əhalisinin sayı 7 mindən çox idi. İşğalçıların basqınından qabaq Xocalıya çoxlu qaçqın da pənah gətirmişdi. Şəhər əhalisinin sayı xeyli artmış, çoxlu yaşayış binaları tikilmiş, sənaye müəssisələri işə salınmışdı. Buna görə də Xocalıya respublika əhəmiyyətli şəhər adı verilmişdi.

Fevralın 25-də axşam Xocalı güclü top atəşinə tutuldu. Təyyarə limanı və ona yaxın olan evlər dağıldıldı. Güclü top atəşindən sonra quldurların şəhərə hücümları başlandı. Qabaqda sovet ordusunun 366-cı alayının zirehli texnikası-tanklar, zirehli döyüş maşınları, onun arxasınca isə ermənilər hücum edirdi. Şəhərin müdafiə səddi zəif idi. Düşmənlər şəhərə daxil olduqdan sonra da hər küçə, məhəllə, ev uğrunda döyüşlər davam edirdi. Xocalılar hər qarış Vətən torpağını qəhrəmanlıqla qoruyurdular. Vəhşiləşmiş ermənilər heç kimə— qocalara, qadınlara, uşaqlara, hətta südəmər körpələrə belə rəhm etmirdilər. Çox adamı qapıları bağlayıb, öz evlərinin içindəcə yandırırdılar.

Təpədən-dırnağadək ən müasir silahlarla silahlanmış erməni quldurları və 366-cı motoatıcı alayın əsgərləri bütün gecəni Xocalıya divan tutdular.

Xocalı qırğını dövründə erməni faşistlərinin bu qanlı cinayətlərinin üstünü açmaq, onu dünya xalqlarına çatdırmaq üçün xalqımızın qəhrəman oğlu Çingiz Mustafayev misilsiz hünər göstərdi. Ç. Mustafayevin fədakarlığı sayəsitndə xarici jurnalistlər də baş vermiş qırğın yerinə getmiş və ermənilərin törətdikləri vəhşilikləri öz gözləri ilə görmüşdülər.

**(Ardı 6-cı səhifədə).**

## Ay qaçqınlar...

*Halınıza yanıram mən.*
*Sizi doğma sanıram mən.*
*Çoxunuzu tanıram mən.*
*Yaşadınız çətin günlər,*
*Ay qaçqınlar, didərginlər.*
*Tələ qurdu yadlar sizə*
*Ah nə deyim mərdinizə.*
*Dağdan ağır dərdinizə.*
*Hey sızıldar, dağlar inlər,*
*Ay qaçqınlar, didərginlər.*
*Qovuldunuz obanızdan.*
*Qanlar axdı yaranızdan.*
*Oldunuz ağ-qaranızdan,*
*Susdu haqqa yaxın dinlər.*
*Ay qaçqınlar, didərginlər.*
*Ocağınız söndü yaman,*
*Arabanız döndü yaman,*
*Aman, yaman gündən, aman*
*Başınıza gəldi nələr,*
*Ay qaçqınlar, didərginlər.*
*Döndərəndə fələk çarxı,*
*Şah da keçə bilməz arxı,*
*Səbr etməkdən başqa axı,*
*Əlinizdən nə iş gələr.*
*Ay qasqınlar, dədərginlər.*
*Sazınızin zili, bəmi,*
*Unutdurmaz dərdi, qəmi.*
*Ürəyiniz quzu kimi,*
*Vətən deyib daim mələr.*
*Ay qaçqınlar, didərginlər.*
*Günləriniz xoş keçsə də,*
*Kef-damağa boş keçsə də.*
*Lap məzə-meyxoş keçsə də.*
*Qəlbinizi həsrət dələr,*
*Ay qaçqınlar, didərginlər.*
*Ruhu eldən alan kəs də,*
*El qaydına qalan kəs də.*
*Heç vicdanı olan kəs də.*
*Lağ eləyib sizə gülər?*
*Ay qaçqınlar, didərginlər.*
*Qış yerini verər yaza,*
*Xoş günlərdən yaza-yaza.*
*İnşallah el-obanıza,*
*Qayıdasız bir gün gələr,*
*Ay qaçqınlar, didərginlər.*
*Haqdan nida gəldi bizə,*
*Nur çilənsin ömrünüzə,*
*Yaradandan daim sizə.*
*Komradlı da xoş gün dilər.*
*Ay qasqınlar, didərginlər.*

**Cəlil KOMRADLI.**